

Azərbaycan- Türk Futbol Məktəbinin acılması Türkiyədə böyük maraqla qarşılanıb. Türkiyənin tanınmış texniki direktorlarından biri olan Yilmaz Vuraldan sonra daha bir dəstək də Güvən Kurtardan gəlib.

G.Kurtar Azərbaycan- Türk Futbol Məktəbinin direktoru və özünün xarici ölkələrdəki meneceri olan Yusuf Uncular vasitəsilə təbriklərini çatdırıb. O, məktəbin açılışında içtirak edəcəyini və məktəbin fəaliyyətinə böyük ümidlər bəslədiyini vurğulayıb.

Qeyd edək ki. G.Kurtar qısa müddət əvvəl Mübariz Mənsimovun “Xəzər Lənkəran”a gəlmək təklifini qəbul etməmişdi.

G.Kurtar “Kocaelispor”u çempionluğa çıxararaq, UEFA-da çıxış edən bir sıra komandaları çalışdırıb.